## *ƏBƏDİYYƏT*

*Zərifə xanımın xatirəsinə*

Sükut içindədir muzey qəbristan,
Heykəllər, türbələr durur  yan-yana.
Daim yaraşıqdı torpağa insan,
Burda – məzarda da, sağlığında da!

Düyün var – hələ də açan olmayıb,
Dünya günahkardı deyən görmədim.
Sudur – axıracan içən olmayıb,
Çörəkdir – doyunca yeyən görmədim.

Yatır Nazim Hikmət son mənzilində,
Çoxdan görüşmürük, ay ustad salam!
Daşla danışıram insan dilində,
Dünən o canlıydı,
Sabah mən daşam.

Budur təbiətin sonu, əzəli,
Bitir gör  insanın güzarı, harda?
Yatır eldən uzaq bir el gözəli,
Beşiyi hardadı,
Məzarı harda?!

Bu necə dibçəkdi, bu necə çiçək?
Torpaqda gül bitib,
Torpaqdan ayrı.
Yarpağı gün döyər, meyvəni külək,
Bağban uzaq düşsə bir bağdan ayrı.

Gözü yolda qaldı doğma ellərin,
O şəfa paylayan loğman qızıydı.

O, bizim ən böyük
Vətənpərvərin,
dünyada yeganə bir dünyasıydı!

O, yüksək kürsüdən nitq eləyəndə,
bu, yerdə oturub alqışlayardı.
Xalqın şərəfinə o, söz deyəndə,
bu, ona səadət bağışlayardı.

Özü oxuyardı öz adətilə,
şerini, sözünü doğma diyarın.
Heç vaxt onun-bunun  zəmanətilə
Qəlbinə dəyməzdi bir sənətkarın.

Dağlıq Qarabağda şer məclisi!
Vaqif  günləriydi... başqaydı dağlar.
Mən də şer dedim,
sevirdi bizi, özü tanıyırdı, tanıtmırdılar.

Ucaykən hər qəlbə hörmətlə enmək,
Ürəyin ürəyə səyahətiymiş.
Mən onda gördüm ki,
sevmək, sevinmək
insanın ən ali təbiətiymiş.

Gör kimi itirdin, ey ulu dostum,
Axtar indən belə qışda, baharda.
Bir dünya tapmışdın,
taleyin onu,
bir qarış torpağa dəyişdi, harda?!

Gedəni saxlamaq olsaydı mümkün,
bir el yeriyərdi bəlkə də o gün.

Məlhəmi olsaydı gül-çiçək ətri,
çəmənlər dil açar,
yoxdu, - deməzdi.

Ürək istəsəydin, səndən ötəri,
Heç kəs ürəyini əsirgəməzdi.
Su gərək olsaydı Arazla Kürdən,
Araz, Kür o səmtə axardı hökmən.
Od gərək olsaydı günəşdən əgər,
töhfə gətirərdi günəşli ellər!

O yatır qoynunda əbədiyyətin,
məzarı dünyadır, dünyası məzar.
Eşqin ürəyində yaşayır sənin,
bir eşqi bir ürək yüz il yaşadar.

Yanında olmadım ağır günündə,
Qəminə şərikəm, sonsuzdur o qəm.
Yalnız eşq önündə,
torpaq önündə
əyilən o başa mən baş əyirəm!

***1985***

***Nəriman Həsənzadə***

***Zərifə xanım Əliuyeva. – B.: 1998. – S.15.***